**Azərbaycan Dövlət Iqtisad Universiteti (UNEC)**

**“Maliyyə və audit” kafedrasının**
**müdiri: Ə.Ə.Ələkbərov, i.e.d., prof.** **Təsdiq edirəm:**
**15 sentyabr 2025**

**«Beynəlxalq Audit » fənni üzrə**
**IŞÇI TƏDRIS PROQRAMI**
**(Sillabus)**

**<u>I.Fənn haqqında məlumat</u>**

| | |
|---|---|
| **Fənnin kodu:** | |
| **Fənnin öyrənilməsinin zəruriliyi** | **məcburi** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri** | **yaz** |
| **Kursun səviyyəsi** | **bakalavr** |
| **Tədris forması** | **əyani** |
| **Fakultə:** | **Maliyyə və mühasibat** |
| **Qrup:** | |
| **Tədris yükü:** | **60 saat (mühazirə/məşğələ- 30/30)** |
| **Kredit sayı:** | **4 (dörd)** |

**<u>II, Müəllim haqqında məlumat</u>**

| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **dos.Musayeva N.M.** |
| **Kafedra:** | **Maliyyə və audit** |
| **E-mail ünvanı:** | **m_nazaket@hotmail.com**<br>**Nazakat_Musayeva@unec.edu.az** |
| **İş telefonu:** | **012 492-40-04** |
| **Tələbələr üçün qəbul vaxtları:** | **cümə günləri, saat 11:00-13:00** |

**<u>III. Fənnin təsviri:</u>**

“Beynəlxaq Audit Standartları” fənni Peşəkar Mühasiblərin Sertifikatlarşdırma Proqramının Fundamental səviyyəsinə daxil edilmiş fənnlərdən biridir. Fənnin tədrisinin zəruriliyi tələbələrə mövcud normativ-hüquqi bazaya, Beynəlxalq Audit Standartlarına uyğun maliyyə hesabatlarının auditinin təşkili və aparılması, yoxlamanın nəticələrinin sənədləşdirilməsi və auditor hesabatının tərtib edilməsinin konseptual əsaslarını və praktiki aspektlərini öyrətməklə əlaqədardır. Audit təsərrüfat subyektlərinin fəaliyyətində maraqlı tərəflərin dürüst, dolğun və obyektiv informasiya əsasında maliyyə xarakterli müxtəlif idarəetmə qərarlarının qəbul edilməsini təmin edir. Audit maliyyə hesabatında əks etdirilmiş məlumatların dürüstlüyü haqqında onun istifadəçilərində əminlik yaratmaq məqsədi ilə Beynəlxalq audit standartlarının tələblərinə müvafiq olaraq yoxlanılan təşkilatda daxili nəzarətin və audit risklərinin

qiymətləndirilməsini, mühasibat uçotunun təşkilinin, aparılan çoxsaylı müxtəlif maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanmasını əhatə edir.

"Beynəlxalq Audit Standartları" fənninin öyrənilməsi "İqtisadiyyat" ixtisası üzrə ali ixtisas təhsilinin dövlət təhsil standartının aşağıdakı prinsiplər üzrə tələblərinin reallaşdırılmasını təmin edir: mühasibat hesabatının dürüstlüyü haqqında auditor rəyinin formalaşmasının prinsipləri və vəzifələri; maliyyə qərarlarının əsaslandırılması zamanı auditor rəyindən istifadənin istiqamətləri; müxtəlif sahə və təşkilati-hüquqi formaya malik müəssisələrdə auditor nəzarətinin təşkili; təşkilatlarda mühasibat uçotu və hesabatının bütün bölmələri üzrə auditor yoxlamalarının aparılması metodikası.

**IV. Fənnin məqsədi və vəzifələri.**

Fənnin tədrisinin məqsədi - tələbələr tərəfindən fənnin tələblərinə və standartlarına müvafiq zəruri və kifayət qədər nəzəri biliklərə, auditin aparılması və onun nəticələrinin sənədləşdirilməsi məsələləri üzrə praktiki vərdişlərə yiyələnməkdir. Tələbələr əldə etdikləri bilikləri Azərbaycanda fəaliyyət göstərən müxtəlif təşkilatların audit yoxlamaları zamanı istifadə edə bilər.

"Beynəlxalq Audit Standartları" fənninin tədrisi qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

● maliyyə-təsərrüfat nəzarəti sistemində auditin yerini müəyyən etmək;
● audit yoxlamalarının strukturunu və ardığıllığını müəyyən etmək;
● audit fəaliyyətinin normativ bazasını və onun normativ tənzimlənməsinin xüsusiyyətləri-ni öyrənmək ;
● auditin əsas metodikasına yiyələnmək;
● auditin və onun nəticələrinin sənədli rəsmiləşdirilməsi qaydasını öyrənmək;
● qarşıya qoyulmuş məqsədə çatmaq üçün əldə edilmiş biliklərdən istifadə etmək.

**V. Öyrənmənin nəticələri**

Fənnin öyrənilməsi prosesində tələbə aşağıdakılar haqqında biliklərə malik olmalıdır:

- auditin digər nəzarət formaları ilə oxşarlığı və fərqləri haqqında;
- audit fəaliyyətinin normativ-hüquqi tənzimlənməsi haqqında;
- auditor yoxlamalarının əsas elementləri haqqında;
- maliyyə-təsərrüfat fəaliyyətinin həyata keçirilməsi prosesində mümkün saxtakarlıq və səhvlər haqqında;
- idarəetmə qərarlarının qəbul edilməsi zamanı auditin nəticələrindən istifadə istiqamətləri haqqında;

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

• auditor fəaliyyətinin normativ tənzimlənməsi sistemini;
• auditin təşkili və aparılması metodikasını;
• audit olunan şəxsin, auditor təşkilatının və sərbəst auditorun hüquqlarını, vəzifələrini və məsuliyyətini.
• auditin nəticələrinin ümumiləşdirirməsi və istifadəsi qaydasını;

**Bacarmalıdırlar:**

• müxtəlif uçot obyektlərinin auditor yoxlamasının təşkili və aparılması qaydasını;
• yoxlamaya cəlb edilmiş sənədlərdən istifadəni;
• maliyyə hesabatlarının dürüstlüyünü yoxlamaq üçün auditin mərhələlərini və hər bir mərhələyə uyğun analitik prosedurlardan istifadəni;
• daxili nəzarət sisteminin və auditor riskinin qiymətləndirilməsi metodikasını;
• yoxlamanın nəticələrini ümumiləşdirməyi və maliyyə hesabatlarının dürüstlüyü haqqında peşəkar fikri formalaşdırmağı;
• auditor yoxlamasının nəticələri əsasında şirkətin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üzrə daxili imkanları aşkar etmək və onlardan istifadə üçün təkliflər hazırlamağı

**VI. Fənnin mühazirə mövzuları:**

1. Maliyyə hesabatlarının auditini və təhlilini həyata keçirən, eləcə də digər əminlik və əlaqəli xidmət tapşırıqlarını yerinə yetirən audit təşkilatlarında keyfiyyətə nəzarət (BKNS 1.)
2. Müstəqil auditorun əsas məqsədləri və Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması (BAS 200)
3. Audit tapşırıqlarının tərtib olunması (BAS 210)
4. Maliyyə hesabatlarının auditində keyfiyyətə nəzarət (BAS 220)
5. Auditin sənədlədirilməsi (BAS 230)
6. Maliyyə hesabatının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti (BAS 240)

7. Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması (BAS 250.)
8. Maliyyə hesabatlarının auditinin planlaşdırılması (BAS 300)
9. Müəsisə və onun mühitinin öyrənilməsi əsasında əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi (BAS 315) və Qiymətləndirilmiş risklərə qarşı auditorların cavab tədbirləri (BAS 330)
10.“Auditin planlaşdırılmasında və həyata keçirilməsində əhəmiyyətlilik” (BAS 320)
11.Audit zamanı aşkar edilmiş təhriflərin qiymətləndirilməsi (BAS 450)
12.Audit sübutlarının mahiyyəti və auditor yoxlanmasında onlardan istifadə (BAS 500-599)
13.Maliyyə hesabatlarının auditi zamanı daxili auditorların işindən istifadə edilməsi (BAS 600-699)
14.Maliyyə hesabatları üzrə rəyin formalaşdırılması və hesabatın tərtib edilməsi (BAS 700-799.)
15.Xüsusi təyinatlı konsepsiyaya uyğun hazırlanmış maliyyə hesabatlarının auditinin xüsusiyyətləri (BAS 800.)

**VII. Prerekvizitlər**

Yoxdur.

**V111. Fənnin tədris metodologiyası:**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, işgüzar oyunlardan, xüsusi analitik prosedurlardan (müqayisə, üzləşdirmə, təhlil) istifadə, test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

**IX. Əsas dərslik va ədəbiyyat**


1. “Audit xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı. 1994 (sonrakı dəyişikliklər və əlavələrlə).
2. Daxili audit fıaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı. 2007
3. “Audit” Ali məktəblər üçün dərs vəsaiti./ Yenidən işlənmiş və tamamlanmış ikinci nəşri. — B.: Azərnəşr, 2011. — 504 s.
4. “8 saylı beynəlxalq təhsil standartı (BTS 8)” Audit mütəxəssislərinin səriştəliyinə dair Tələblər — B.: 2012. — 28 səh.
5. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi - Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə. 2019. / https:// audit.gov.az.>uploads>Standart_SON 1
6. Beynəlxalq Audit Standartları. AR Auditor Palatasının rəsni saytı/ https://audit.gov.az/Az/page/414
7. Audit və əminlik. ACCA. F8. AR MN yanında METM. https://www.tedris-maliyye.gov.azaudit.gov.az/Az/page/414
8. “Maliyyə hesabatlarının Beynəlxalq Standartlarına əsasən Mühasibat uçotunun aparılması Qaydaları. AR MN tərəfindən 30 yanvar 2017-ci ildə təsdiq edilmişdir. http//85.132.71.30/framework/34909; framework/31986
9. Abbasov İ.M. Audit. Dırslik. - Bakı. Bakı Biznes Universitetti2013. 544 s.
10. Kazımov R.N, Namazova C.B. Praktiki audit. - Bakı. Elm və təhsil. 2011.
11. Namazova C.B. Audit. Bakı. CBS. 2012
12. https://primeaudit.az/standartlar/standards-on-auditing


Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

**X. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| **1** | Maliyyə hesabatları-nın auditini və təhli-lini həyata keçirən, eləcə də digər əmin-lik və əlaqəli xidmət tapşırıqlarını yerinə yetirən audit təşkilat-larında keyfiyyətə nəzarət (BKNS 1.) | BKNS-in tətbiqi sahəsi və əhatə dairəsi. BKNS-in qüvvəyə minmə tarixi, məqsədi, istifadə olunan anlayışlar və tələblər. Keyfəyyətə nəzarət sisteminin elementləeri. Keyfiyyətə nəzarət sisteminin sənədləşdirilməsi | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |

| | | | |
|---|---|---|---|
| **2** | Müstəqil auditorun əsas məqsədləri və Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması (BAS 200.) | BAS 200 əhatə dairəsi və qüvvəyə minmə tarixi. BAS 200 əsasən maliyyə hesabatının auditi. BAS 200-də əsasən auditorun məqsədi, anlayışlar və tələblər. BAS 200 əsasən maliyyə hesabatlarının auditi ilə bağlı müvafiq etiq normalar, audit sübutları və audit riskləri. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **3** | Audit tapşırıqlarının tərtib olunması (BAS 210.) | BAS 210-un əhatə dairəsi və qüvvəyə minmə tarixi. BAS 210 əsasən auditorun məqsədi, anlayışlar və tələblər. BAS 210-a əsasən audit üçün ilkin şərtlər. Audit tapşırığının yerinə yetirilməsi şərtlərinə dair razılaşma və şərtlərdəki dəyişikliklərin qəbul edilməsi. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **4** | Maliyyə hesabatlarının auditində keyfiyyətə nəzarət (BAS 220.) | BAS 220-nin əhatə dairəsi və qüvvəyə minmə tarixi. BAS 220-nin məqsədi, anlayışlar və tələblər. Auditin keyfiyyətinə görə rəhbərliyin məsuliyyəri və müvafiq etik normalar. Müştərilərlə qarşılıqlı münasibətlərin qurulması və saxlanılması, audit tapşırıqlarının qəbul edilməsi və yerinə yetirilməsi. BAS 220 əsəsan sənədləşmə. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **5** | Auditin sənədlədirilməsi (BAS 230.) | BAS 230-un əhatə dairəsi və qüvvəyə minmə tarixi. Auditin sənədləşməsinin xüsusiyyətləri və məqsədləri. Audit sənədlərinin vaxstında hazırlanması. Yerinə yetirilmiş audit prosedurlarınn və əldə edilmiş audit sübutlarının sənədləşdirilməsi. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **6** | Maliyyə hesabatının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti (BAS 240) | BAS 240-in əhatə dairəsi və qüvvəyə minmə tarixi, dələduzluğun xüsusiyyətləri, qarşısının alınması və aşkar edilməsinə görə məsuliyyət. BAS 240-in məqsədi, anlayışlar və tələblər. Dələduzluqla bağlı əhəmiyyətli təhriflər riskinin müəyyən edilməsi, qiymətləndirilməsi və risklərə qarşı ncavab tədbirləri. Audit sübütlürının dəyərləndirilməsi. BAS 240-a dair sənədləşmə | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **7** | Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması (BAS 250.) | BAS 250-nin əhadə dairəsi, qüvvəyə minmə tarixi, qanun-qaydaların təsiri və onlara riayət edilməsinə görə məsuliyyət. BAS 250-nin məqsədi, anlayışlar, tələblər və sənədləşmə. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **8** | Maliyyə hesabatlarının auditinin planlaşdırılması (BAS 300.) | BAS 300-ün əhatə dairəsi, planlaşdırmanın rolu, müddəti və qüvvəyə minmə tarixi. BAS 300-un məqsədi, anlayışlar və tələblər.Fəaliyyətin planlaşdırılması cə sənədləşdirmə. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **9** | Müəssisə və onun mühitinin öyrənilməsi əsasında əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi (BAS 315.) və Qiymətləndirilmiş risklərə qarşı auditorların cavab tədbirləri (BAS 330.) | BAS 315-un əhatə dairəsi, quvvəyə minmə tarixi, məqsədi və tələblər. Müəssisə və onun mühitinin, o cümlədən daxili nəzarətinin öyrənilmə zərurəti. Əhəmiyyətli təhriflər riskinin müəyyən edilməsi, qiymətləndirilməsi və sənədləşmə.<br>BAS 330-un əhatə dairəsi, quvvəyə minmə tarixi, məqsədi və tələblər. Təsdiqləmələr səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhriflər riskinə qarşı yerinə yetirilən audit prosedirları. Maliyyə hesabatlarının təqdimatının adekvatlığı və sənədləşmə. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |

| | | | |
|---|---|---|---|
| **10.** | Auditin planlaşdırıl-masında və həyata keçirilməsində əhəmiyyətlilik ( BAS 320) | BAS 240-ın əhatə dairəsi və audit konteksində əhəmiyyətlilik. BAS 240-ın qüvvəyə minmə tarixi, məqsədi, və tələblər. Audit ərzində yoxlama və sənədləşmə | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **11** | Audit zamanı aşkar edilmiş təhriflərin qiymətləndirilməsi (BAS 450.) | BAS 450-nin əhatə dairəsi, qüvvəyə minmə tarixi, məqsədi və anlayışlar. BAS 450-nin qarşısnda duran tələblər. Yazılı təqdimatlar və sənədləşmə. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **12** | Audit sübutlarının mahiyyəti və auditor yoxlanmasında onlardan istifadə (BAS 500-501) | BAS 500-ün əhatə dairəsi, qüvvəyə minmə tarixi, məqsədi və tələblər. BAS 500-də istifadə edilən an-layışlar. BAS 501-in əhatə dairəsi, qüvvəyə minmə tarixi, məqsədi və tələblər. Məhkəmə prosedurları, iddialar və seqmentlər üzrə məlumatlar. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **13** | Maliyyə hesabatlarının auditi zamanı daxili auditorların işindən istifadə edilməsi (BAS 600-699) | BAS 600-un əhatə dairəsi, qüvvəyə minmə tarixi, məqsədi və tələblər. Ümumi audit stratrgiyası və audit planı. Konsolidasiya prosesi. Əldə edilmiş audit sübutlarının yetərliliyi, münasibliyi, qiymət-ləndirilməsi və sənədləşmə. BAS 610-nun əhatə dai-rəsi, qüvvəyə minmə tarixi, məqsədi və tələblər. BAS 610 dair sənədləşmə. BAS 620-nin əhatə dairə-si, qüvvəyə minmə tarixi, məqsədi və tələblər. Audi-tor ekspertinin səriştəsi, imkanları və obyektivliyi. | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **14** | Maliyyə hesabatları üzrə rəyin formalaşdırılması və hesabatın tərtib edilməsi (BAS 700–799) | 700 saylı (düzəliş edilmiş) BAS: Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi. 701 saylı BAS: Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumatvermə.705 saylı (düzəliş edilmiş) BAS: Müstəqil auditorun hesabatında fərqli rəylər. 706 saylı (düzəliş edilmiş) BAS: Müstəqil auditorun hesabatında izahedici paraqraflar və digər məsələlər paraqrafları. 710 saylı BAS: Müqa-yisəli məlumatlar: müqayisəli göstəricilər və müqa-yisəli maliyyə hesabatları. 720 saylı BAS: Auditi apa-rılmış maliyyə hesabatlarını əks etdirən sənədlərdəki digər məlumatlar üzrə auditorun məsuliyyəti | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| **15** | Xüsusi təyinatlı konsepsiyaya uyğun hazırlanmış maliyyə hesabatlarının auditinin xüsusiyyətləri (BAS 800 və 810.) | BAS 800-ün əhatə dairəsi, qüvvəyə minmə tarixi, məqsədi və tələblər. BAS 810-un əhatə dairəsi, qüvvəyə minmə tarixi, məqsədi və tələblər. Prosedurun xüsusiyyəti və rəyin forması. Auditi aparılmış maliyyə hesabatlarına dair auditor hesabatının tarixindən sonrakı işlərin, hadisələrin müddəti və sənədlərdə daxil edilmiş məlumatlar | Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Digər Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartlar Toplusu. **BAKI-2019** |
| | **Yekun imtahan** | | |

## XI. Praktiki məşğələlər

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

**<u>XII. Cari qiymətləndirmə.</u>** UNEC-də bakalavriat və magistratura səviyyələrində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran **<u>cari və aralıq qiymətləndirmə</u>** (toplam 100 bal) əsasında həyata keçirilir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavr və magistrantların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal fənlərin tədris növünə uyğun olaraq aşağıdakı qaydada formalaşır:

- tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında;

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$B = (b_1+b_2+b_3+...+b_n) / s) \times m) / 10$

Burada,

B - yekun aktivlik balı;

$B_1$, $b_2$, $b_3$ - seminar dərslərində alınan müxtəlif ballar;

s - semestr ərzində verilən cavabların sayı;

m - aktivlik balına ayrılan maksimal bal;

10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavr və magistrantlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə [(10+10+10+10)/4) × 20)/10] = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavr və ya magistrantların cavab verməsi üçün imkan yaradır.

Bakalavr və magistrantlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (10+10+0+0) / 4)×20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə*** - hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

***Aralıq qiymətləndirmə*** - test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətlən-dirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Tədris növlərinə müvafiq olaraq fənlər üzrə ***cari və aralıq qiymətləndirmə*** aşağıdakı qaydada və bal nisbətlərində həyata keçirilir:

- Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır;

## XIII. Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIV. Fənn üzrə qiymətləndirmə

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 |
| Ara qiymətləndirmə əsasında | 30 | 30 |
| Aktivlik balı | 20 | 20 |
| **Cəmi:** | **100** | **100** |

Semestr müddətində 1 kollokvium keçirilir.
Kollokviumda iştirak etmədiyi halda tələbəyə jurnalda "0" yasılır.
Tələbə 50 balı imtahanda yığır.

**Qeyd:**

Tələbə imtahanda 17 bal yığmışolduqda, onun imtahana qədər yığmış olduğu ballar ləğv edilir.

Fənn üzrə semestr ərzində (imtahanaqədərvə imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

91-100 bal- "əla" – **A**
81-90 bal- "çox yaxşı" – **B**
71-80 bal- "yaxşı" – **C**
61-70 bal- "kafi" – **D**
51-60 bal- "qənaətbəxş" – **E**
51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

***Qiymətləndirmə siyasəti:***

*"Əla"*- kursun nəzəri məzmunu heç bir qüsur olmadan tam mənimsənilmişdir, mənimsənilmiş materiallarla bağlı zəruri olan praktiki vərdişlər formalaşmışdır, tədris proqramında nəzərdə tutulan bütün tədris tapşırıqları yerinə yetirilmişdir, yriniə yetirilmənin keyfiyyəti çox yüksəkdir;

*"Çox yaxşı"*-kursun nəzəri məzmunu heç bir qüsur olmadan tam mənimsənilmişdir, mənimsənilmiş materiallarla bağlı zəruri olan praktiki iş vərdişləri əsasən formalaşmışdır, tədris proqramında nəzərdə tutulan bütün tədris tapşırıqları yerinə yetirilmişdir, yriniə yetirilmənin keyfiyyəti yüksəkdir;

*"Yaxşı"*-kursun nəzəri məzmunu heç bir qüsur olmadan tam mənimsənilmişdir, mənimsənilmiş materiallarla bağlı bəzi praktiki iş vərdişləri kifayət qədər formalaşmamışdır, tədris proqramında nəzərdə tutulan bütün tədris tapşırıqları demək olar ki yerinə yetirilmişdir, tapşırıqların bəzi növləri səhvlərlə yerinə yetirilmişdir;

*"Kafi"*-kursun nəzəri məzmunu qismən mənimsənilmişdir, ancaq qüsurlar əhəmiyyətli xarakter daşımır, mənimsənilmiş materiallarla bağlı zəruri praktiki iş vərdişləri əsasən formalaşmışdır, tədris proqramında nəzərdə tutulan tədris tapşırıqlarının əksəriyyəti yerinə yetirilmişdir, yerinə yetirilmiş tapşırıqların bəziləri səhvlərə malikdir;

*"Qənaətbəxş"*- kursun nəzəri məzmunu qismən mənimsənilmişdir, bəzi qüsurlar əhəmiyyətli xarakter daşıyır, mənimsənilmiş materiallarla bağlı zəruri praktiki iş vərdişləri əsasən formalaşmışdır, tədris proqramında nəzərdə tutulan tədris tapşırıqlarının əksəriyyəti yerinə yetirilmişdir, yerinə yetirilmiş tapşırıqların bir hissəsi (yarıdan azı) səhvlərə malikdir;

*"Qeyri-kafi"*-kursun nəzəri məzmunu mənimsənilməmişdir, zəruri praktiki iş vərdişləri formalaşmamışdır,yerinə yetirilmiş tədris tapşırıqlarının demək olar ki hamısı kobud səhvlərə malikdir,

materiallar üzərində əlavə müstəqil iş, tədris tapşırıqlarının yrinə yetirilməsinin keyfiyyətinin hər hansı əhəmiyyətli yüksəlməsinə gətirib çıxarmayacaqdır.

**Mənbələr:**

**The London Scool of Economics (LSE)**
http://www/Ise.ac.uk/resources/ calendar/courseGuides / MG/2018 MG411.htm?
from serp=1
**Harvard Business Scool**
https://www.hbs.edu/abou/Pages/defaul/t.aspx
**University of Toronto**
https://www.teaching.utoronto.ca/teaching-support/course-desing/devoloping-a-syllabus
**İndiana University**
https://www.citl.indiana.edu/teaching-resources/course-desing/syllabus-construction
Ali təhsil müəllimləri üçün yardımçı xüsusi saytlar:
https://www.owlteacher.com./ syllabus.html
https://study.com/academy/lesson/eslhigh-scool-sullabus-example.html

**Tərtib etdi:**

**1. Musayeva N.M.**  **i.ü.f.d., dos.**